# Bayraq Əhməd Cavad yaradıcılığında

*Vətənpərvər şair Əhməd Cavadın qəlbində Vətəninə, xalqına, torpağına sonsuz məhəbbət vardı. Şeirləri, məqalələri bu məhəbbətin söz təsdiqi idi. O, köksündə xalqı üçün, torpağı üçün yanar ürək daşıyırdı. Bu yanğı ilə yazdı, yaratdı, xalqının səsini dünyaya çatdırmaq istədi; xalqı üçün yaşayırdı şair.*

Dövrünün ziyalıları Əhməd Cavadın yaradıcılığını yüksək dəyərləndirirdi, əxlaqını və üstün məziyyətlərini görüb ona həmişə qayğı və hörmətlə yanaşırdılar. Onun yazdığı şeirlər, məqalələr mətbuat orqanlarında səxavətlə dərc etdirilirdi.

Əhməd Cavad lirik şair idi. Məhəbbət mövzusunda və siyasi məzmunda yazdığı şeirlər özünəməxsusluğu ilə seçilirdi. Siyasi motivli şeirləri içərisində bayrağa məhəbbət hissi daha yüksək pillədə dururdu. Bir çox şairlər bu mövzuya müraciət etsələr də, Əhməd Cavad yüksəkliyinə qalxa bilməmişdilər.

Şairin bayrağımıza sevgisi həyatının, ömrünün mənası səviyyəsindəydi. Şair bayrağı elə nəvazişlə, elə yumşaqlıqla, elə şirin sözlərlə vəsf edir ki! Onun təqdimatında bayraq göz önündə hamının duyğularını coşduran "mələk simalı, ahəstə yerişli, ay nuru kimi ağ tülə bürünmüş zərif görkəmli bir varlıq" kimidir:



*Sən qüdrətin aşıb-coşan vaxtında,*
*Mələklərin gülüşündən yarandın!*
*Səhər dilli bir fırçanın əliylə,*
*Ahuların gülüşündən yarandın!*

Şair ürəyinin bayraqla bir döyündüyünü, vuruşunun ilhamı ilə bahəm olduğunu böyük sənətkarlıqla verib.

Başqa bir şeirində bayrağı gül ləçəyinə, onun qırmızılığını şəhid qanına bənzədir. Bayrağın qırmızılığına ortasındakı hilalın bir ayrı gözəllik, yaraşıq verdiyini də qeyd edir:

*Gül rəngində bir yapracıq,*
*Ortasında bir hilal;*
*Ey al bayraq, sənin rəngin*
*Söylə neyçün böylə al?*

Digər bir şeirində:

*Türküstan elləri öpüb alnını,*
*Söyləyir dərdini sana, Bayrağım!*
*Üçrəngli əksinin Quzğun dənizi,*
*Ərmağan yollasın yara, Bayrağım!* -

deyir. Bu şeirdə hələ 1918-ci ilin aprelində ingilislər Bakıya gələrkən parlament binasının üzərində Azərbaycanın milli bayrağını görən şairin ürəyi fəxrlə, qürurla döyünür, gözlərindən sevinc yaşları axır. Bayrağın kölgəsi şairin üzərinə düşəndə belə özünü göyün yeddinci qatında hiss edir.

Şair bayrağı o qədər sevir ki, hətta onun kölgəsi düşən yeri mübarək sayır. Dizləri üstə düşərək onu öpmək üçün irəli gəlir. Dinindən, imanından ən çətin anında belə dönməyən şair Allahın yeri, göyü xəlq etdiyi ulduzların belə ona mənsub olduğunu və bu gözəllik nümunəsinin Ayla birlikdə bayrağın üzərində bərqərar olduğunu çox sadə dildə ifadə edib:

*Köksündə tufanlar gəldim illəri,*
*Öpdüm kölgən düşən mübarək yeri!*
*Allahın yıldızı, o gözəl pəri,*
*Sığınmış qoynunda aya, Bayrağım!*

Əhməd Cavad da inanırdı ki, bir kərə yüksələn bayraq bir daha enməz. Əgər vətənpərvər şairimiz bir anlığa dünyaya boylana bilsəydi, görərdi ki, onun vəsf etdiyi, şanına şeirlər həsr etdiyi bayraq qürurla dalğalanır... Azərbaycan əsgəri onu Cıdır düzündə, Şuşada, işğaldan azad edəcəyi bütün torpaqlarımızda dalğalandıracaq! Onda Əhməd Cavadın da ruhu Vətən göylərində pərvazlanacaq.

**Sara ŞABANOVA,**
**Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müəllimi**